Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın Qarabağ avantüralarının iki neqativ nəticəsi barədə Ermənistanda rəy - "özümüzə ziyan dəyir", "Azərbaycan legitim müharibəyə əsaslar qazanır"...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli istiqamətində mövcud Ermənistan hakimiyyəti, belə görünür ki, hansısa real addımlar atmaq niyyətində deyil. Bunu Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağa dair bir-birinin ardınca verdiyi son avantürist bəyanatları da təsdiq edir.**

O, Münhendən qayıtdıqdan sonra Ermənistanın İctimai televiziyasına müsahibəsində, ardınca işğal edilmiş ərazilərdə olarkən verdiyi açıqlamalarda zəbt olunmuş torpaqların dinc yolla Azərbaycana qaytarılmasını istisna edib. Təbii ki, Paşinyanın belə sərsəmləmələri konfliktin hərbi həllini qaçılmaz edir.

Maraqlıdır ki, işğalçı Ermənistanın özündə belə hadisələrin Paşinyan üzündən hərbi müstəviyə yönəlmə ehtimalının artmasından artıq ciddi narahatlıq ifadə olunur. Məsələn, erməni politoloq Qrant Məlik-Şahnazaryan vurğulayır ki, Paşinyan indiki Qarabağ mövqeyi ilə ölkəni sonu dəqiq bilinməyən fəlakətli bir savaşa sürükləyir:"Əslində ən böyük problem budur ki, Nikol Paşinyan bütün mövcud formatları rədd etmək və danışıqlar prosesini yenidən başlamaq barədə danışır. O, İctimai Televiziyaya müsahibəsində məhz bu barədə danışırdı. Erməni tərəfi əslində mövcud danışıq variantları və mexanizmlərindən imtina etdikdə bir sıra fərqli suallar ortaya çıxır və burada təhlükəsizliyə bənzəyən formatlar sadəcə mənasız olur". Onun sözlərinə görə, Ermənistan Azərbayacana müharibəyə başlamaq üçün fürsət verir:"Bu cür yolla rəsmi İrəvan Azərbaycana müharibəyə başlamaq üçün legitim fürsət verir və həmçinin vasitəçilərə də diplomatik yolla buna mane olmamaq üçün fürsət verir. Münhendən sonra biz müharibəyə bir addım da yaxınlaşdıq". Ermənistanın "Politekonomia" araşdırma mərkəzinin rəhbəri, politoloq Andranik Tevanyan da məsələyə eyni prizmadan yanaşır. Tevanyan vurğulayır ki, Paşinyan Münhendə baş verənləri düzəltməyə çalışır, lakin bunu boş yerə edir. Çünki o, Azərbaycan rəhbəri qarşısında biabırçı bir məğlubiyyətə düçar olub və bunu düzəltməsi qeyri-mümkündür. O qeyd edib ki, Paşinyanın yeganə strategiyası qərar qəbul etmək məsuliyyətindən yayınmaq, baxış təqdim etməmək, mücərrəd fikirlər bildirmək və məsələni başqa şeylərin üzərində çətinləşdirmək olaraq qalır: "Azərbaycan və vasitəçilər Paşinyanın uydurduğu Münhen prinsiplərini qəbul ediblər? Bu istiqamətdə hansı addımlar var? Qarabağın danışıqlar masası ətrafında əyləşməsi siyasəti niyə Qarabağın azərbaycanlı icması amilinin güclənməsi və onun subyektivliyinin təmin edilməsinə gətirib çıxarıb? "Təhlükəsizlik qarşısında ərazilər" formatı Paşinyan üçün məqbuldur? O bunu danışır, yoxsa baş bir şey? Məmmədyarov-Mnatsakanyan danışıq formatında qaçqınların qaytarılması məsələsi müzakirə olunub? Münhen prinsiplərində niyə Vyana, Sankt-Peterburq və Cenevrədə əldə olunmuş razılaşmaların nöqtəsi itirilir? Paşinyan bu suallara cavab vermək əvəzinə, heç kimin qəbul etmədiyi mövqe sərgiləyir. Bu isə Azərbaycanın lehinə işləyir və savaşın başlanmasına münbit zəmin yaradır".

Daha bir erməni politoloq Haqik Ambaryan isə bildirir ki, Münhen məğlubiyyəti hələ Paşinyanı çox ağrıdacaq:"Bu cür formatda Əliyev-Paşinyan müzakirəsinin olacağını öyrənəndə düşündüm ki, cənab Paşinyan bu görüşə çox yaxşı hazırlaşacaq, lakin debatdan bir neçə dəqiqə sonra məyus oldum. Paşinyan Münhen məğlubiyyətini arxa plana atmaq üçün indi müxtəlif fikirlər səsləndirir. Amma bu fikirlər Ermənistanı yeni bir savaşa sürükləyir. Təəssüf ki, biz həmin savaşa hazır deyilik". Şirak Dövlət Universitetinin müəllimi Artur Hambardzumyan hesab edir ki, Paşinyan Münhen debatında cavablardan yayınmağa çalışırdı: "Nikol Paşinyan durmadan konkret cavablardan yayınmağa çalışırdı. Mənim üçün olduqca xoşagəlməz idi, Azərbaycan nümayəndəsi öz emosiyalarını nümayiş etdirirdi. Üstünlük Azərbaycan tərəfdə oldu. İndi bundan sonra Paşinyanın səsləndirdiyi fikirlər vəziyyəti düzəltmək əvəzinə yeni savaşa təkan verir. Özü də o vaxt ki, bizdə ordu ilə bağlı böyük probemlər var. Ermənistan ordusunda son zamanlar baş verən ölüm hadisələri bunu aydın göstərir. Özü də məndə bununla bağlı bəzi məlumatlar var. Mən bəzi insanlarla danışmışam, lakin məndə məlumat var ki, problem zabit heyəti və əsgərlərdədir. İnqilabdan sonra müddətli əsgərlərə ciddi imkanlar verilib ki, bu da baş vermiş hadisələrin problemidir. Orduda olan yüngül hadisələr artıq zabit heyəti tərəfindən həll edilmir, bu da ciddi nəticələrə səbəb olur. İndi orduda böyük problemlər olduğu bir dönəmdə Qarabağ savaşının yenilənməsi ciddi təhdid kimi qəbul olunmalıdır. Baş nazirin belə həssas məqamlara diqqət yetirməsi, dediklərindən öncə bunları fikirləşməsi çox vacibdir".

İşğal edilmiş ərazilərdə yaradılan qondarma qurumun "təhlükəsizlik şurasının keçmiş katibi" Vitali Balasanyan da qeyd edib ki, Ermənistan hakimiyyəti son 2 ildə danışıqlar prosesində uğursuz olub: "Son 2 ildə Ermənistanın siyasi hakimiyyəti Nikol Paşinyanın timsalında Qarabağ məsələsi danışıqlarında uğursuz olub. Bu gün çoxları Azərbaycanın ərazi bütövlüyü barəsində danışır, BMT tribunasından da dövlətlərin ərazi bütövlüyü haqqında danışırlar, Minsk Qrupu da ərazi bütövlüyünün vacibliyini dilə gətirir". Balasanyanın sözlərinə görə, Ermənistanın hazırkı hakimiyyəti Sankt-Peterburq və Vyana razılaşmalarını heç nəyə çevirib:"Ermənistanın keçmiş hakimiyyətinin Dağlıq Qarabağ məsələsi ilə bağlı mirası Sankt-Peterburq, Vyana razılaşmaları idi, hazırkı hakimiyyət onları heç nəyə çevirdi. Belə vəziyyətdə Azərbaycan mütləq savaşa başlayacaq. Yəqin ki, Paşinyan da elə o vaxt ağıllanacaq".

Erməni general-leytenant Norat Ter-Qriqoryants isə qeyd edir ki, indiki vəziyyətində Ermənistan ordusu Azərbaycan qarşısında tab gətirmək gücündə deyil. O, Ermənistan ordusunda baş vermiş son ölüm hadisələrinin də bunu təsdiq etdiyini bildirir, silahlı qüvvələrdə mövcud durumu fövqəladə vəziyyət hesab edir:"Zabitlərdən, komandirlərdən, çavuşlardan tutmuş müdafiə nazirinə qədər hamı buna görə cavab verməlidir. Bu biabırçılığa görə hər kəs məsuliyyətə cəlb olunmalıdır. Bu rüsvayçılıqdır. Bu yolverilməz və fövqəladə vəziyyətdir. İnternetdə nə baş verdiyini görmüsünüz? Bütün dünya KİV-i yazır ki, Ermənistan ordusu parçalanır. Bəs bu vəziyyətdə biz Qarabağda yeni savaş halında güclənən Azərbaycan qarşısında necə duruş gətirə biləcəyik? Paşinyan iqtidarı, yaxşı olardı ki, bu barədə fikirləşsin". Digər ekspertlər də bildirir ki, Azərbaycanın iqtisadi cəhətdən qüdrətlənməsi, hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar prosesində razılığın əldə olunmaması yalnız Ermənistanın özü üçün böyük problemlər deməkdir. Çünki Azərbaycanın qüdrəti qarşısında işğalçı Ermənistan son dərəcə dərin sosial-iqtisadi böhran keçirir. Bölgədə gerçəkləşdirilən bütün qlobal layihələrdən kənarda qalan Ermənistan əhalisinin durumunun bundan sonra da müsbətə doğru dəyişəcəyinə heç bir ümid yoxdur. Məhz bu durumda Paşinyan iqtidarı Azərbaycanla razılaşmaqdan başqa çıxış yolu olmadığını yaxşı başa düşür. Amma buna rəğmən, danışıqlara xələl gətirən mövqe sərgiləyir ki, bu da savaşı qaçılmaz hala gətirir. Azərbaycan hələlik bəyan edir ki, Qarabağ münaqişəsinin son nəticədə danışıqlar masası arxasında sülh yolu ilə həllini tapmasında maraqlıdır. Ancaq Bakı onu da bəyan edir ki, danışıq prosesi müddətsiz, nəticəsiz ola bilməz. Azərbaycan dövləti konstruktiv danışıqlar ruhuna sadiq olmaqla yanaşı, münaqişənin istənilən vaxt beynəlxalq hüquq çərçivəsində güc yolu ilə həllinə qadirdir. Ekspertlər bu fonda dliqqəti həm də ona yönəldir ki, Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və beynəlxalq birlik tərəfindən müdafiə olunur. Amma bunların heç biri Ermənistan tərəfində yoxdur. Buna görə də Ermənistan özünün sonrakı addımlarını düşünməli, əks halda hansı ağır nəticələrlə üzləşəcəyinə qatlaşmalıdır. Burada Paşinyan hakimiyyəti tərəfindən indi o da aydın sezilir ki, Ermənistanın danışıqlardan qaçması onu iqtisadi cəhətdən daha sürətlə zəiflədir. Çünki bu halda artan savaş ehtimalı fonunda Ermənistanla heç kim iqtisadi əlaqələr qurmaq istəmir. Bu durumda əhali kütləvi şəkildə ölkəni tərk edir və ölkə ən əsas kapital olan insan kapitalından məhrum olur. Belə vəziyyətdə Ermənistan nəinki işğal edilmiş əraziləri, hətta öz ərazisini normal şəkildə iqtisadi, maliyyə və insan resursları ilə təmin edə bilmir. Hər halda, danışıqların dalan dirənməsi Ermənistana böyük itkilər hesabına başa gəlir və bunu İrəvanda da görürlər. Belə vəziyyət bir dövlət kimi Ermənistanın məhvini daha da sürətləndirir.

Bundan xilas olmağın yeganə yolu Azərbaycanla razılığa gəlib əməli addımlar atmaqdır. Eləcə də Ermənistanın özündə belə bir fikir də getdikcə daha çox hakim olmağa başlayır ki, Nikol Paşinyan iqtidarının Qarabağ məsələsində dəqiq yanaşmalarının yoxluğu savaşın yenilənməsindən başqa heç nəyə xidmət etmir. Respublika Partiyasının sədr müavini Armen Aşotyan vurğulayır ki, Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı strategiyası yoxdur. Onun sözlərinə görə, Paşinyan Qarabağ məsələsində danışıqlardakı məsuliyyətdən qorxur: "O, ölkə daxilində və xaricində reallıqla əlaqəsini itirib. Bütün bunlar isə Qarabağda yeni savaş üçün əlverişli şərait yaradır". Proseslər göstərir ki, indiki durumda Ermənistan işğalçı siyasəti ilə həm özünün, həm də ümumən bölgənin inkişafı üçün əsas əngəl olaraq qalır. Buna rəğmən, məsələnin dinc həllinə yeni əngəllər yaradılması Ermənistanın yeni savaşa şərait yaratmasından başqa heç nəyə xidmət etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**